**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏETMƏSİNİN KONSTİTUSİON HÜQUQİ ƏSASLARI

İxtisas: 5607.01 – Konstitusiya hüququ; bələdiyyə hüququ

Elm sahəsi: Hüquq elmləri

İddiaçı: **Ümman İlqar oğlu Ağamalıyev**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2023**

Dissertasiya işi AMEA-nın Hüquq və İnsan Haqları institutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: hüquq üzrə elmlər doktoru, professor
**Əli Heydər oğlu Rzayev**

Rəsmi opponentlər: hüquq üzrə elmlər doktoru, dosent
**Səidə Bəhram qızı Həsənzadə**

hüquq üzrə fəlsəfə doktoru, dosent
**Mehriban Eldar qızı Babaxanova**

hüquq üzrə fəlsəfə doktoru, dosent
**Gülnar Famil qızı Qurbanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 saylı Dissertasiya şurası

Dissertasiya şurasının sədri: hüquq üzrə elmlər doktoru, dosent

________________ **Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru

________________ **Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri: hüquq üzrə elmlər doktoru, dosent

________________ **Sübhan Fərmayıl oğlu Əliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə dünyada təhlükələrin, risklərin, təhdidlərin artması, müharibələrin davam etməsi, yeni münaqişə ocaqlarının yaranması dövlət investisiyalarının azalması nəticəsində sabitlik pozulmuşdur və iqtisadi inkişafla bağlı problemlərin həllində böyük maneələr qarşıya çıxmışdır. Hazırda dünyada gedən siyasi və iqtisadi proseslər dünyanın əksər ölkələri, o cümlədən Azərbaycan Respublikası üçün dölət idarəetmə sisteminin təkmilləşdirilməsi, struktur islahatlarının aparılması, dövlət idarəetmə orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi kimi prioritetlərin ön plana çəkilməsini zəruri edir. Dövlət idarəetmə sisteminin inkişafı ilə bağlı problemlərin həllinin əsas hədəfləri qismində dövlət orqanlarının fəaliyyətinin səmərəliliyi, dövlət hakimiyyətinin həyata keçirilməsində əks-mərkəzləşmənin sürətlənməsi, əhali – dövlət münasibətlərində ziddiyyətlərin yaranması səbəblərinin aşkara çıxarılması və aradan qaldırılması, ölkənin və dövlətin təhlükəsizliyinin təmin olunması, qanunverici orqanın müəyyən etdiyi siyasi – iqtisadi məqsədlərin reallaşdırılması və dövlət idarəetmə fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi etiraf olunmalıdır.

Azərbaycan Respublikası qarşısında duran siyasi və sosial-iqtisadi yönümlü problemlərin konstitusion – hüquqi qaydada həlli xeyli dərəcədə dövlət hakimiyyəti orqanlarının, o cümlədən qanunvericilik və icra hakimiyyətinin fəaliyyətini struktur islahatlar prosesində cəmiyyətin sürətlə dəyişən tələbatlarına uyğunlaşdıra bilən dövlət idarəetmə mexanizminin yaradılmasından asılıdır. Lakin, nəzərə almaq lazımdır ki, konstitusion – hüquqi vasitə və üsullardan istifadə etmədən dövlət idarəetmə sisteminin sabitliyini və bu sabitliyin davamlılığını təmin etmək mümkün deyildir. Bunun dövlətin konstitusiya hüquq institutları sistemində yeri ilə müəyyən etmək mümkündür. Məlumdur ki, Konstitusiya hüquqi elmində əsas hüquq institutları qismində: 1) Konstitusiya quruluşunun əsasları; 2) Şəxsiyyətin hüquqi statusunun əsasları; 3) Dövlət hakimiyyətinin təşkili; 4) Özünüidarəetmənin təşkili; 5) Qanunvericilik sistemi nəzərdən keçirilir.[1] Əsas konstitusiya hüquq insti-

[1] Əsgərov, Z.A Konstitusiya hüququ / Z.A.Əsgərov. – Bakı: Bakı universiteti nəşriyyatı, – 2011. – 760 s.

tutlarının bir-birindən təcrid olunmuş halda deyil, qarşılıqlı əlaqəyə malik olan münasibətlər sistemi kimi nəzərdən keçirilməsi əhali – dövlət – şəxsiyyət arasında qurulan münasibətlərin dövlət orqanlarının idarəetmə fəaliyyətinin həyata keçirilməsi yolu ilə tənzimlənməsinin zəruriliyini aydınlaşdırmağa imkan verir.

İctimai münasibətlərin tənzimlənməsi sahəsində həyata keçirilən idarəetmə tədbirlərinin ölkənin davamlı sosial-iqtisadi inkişafının və əhalinin güzəranının təmin edilməsində əhəmiyyətinin yüksəldilməsinin zəruri şərtlərindən biri dövlət idarəetməsinin təkmilləşdirilməsi yollarının və üsullarının aşkar edilməsidir. Bu mövqedən Azərbaycan Respublikasının dövlət idarəetmə sisteminin fəaliyyətinin konstitusion – hüquqi əsaslarının yaradılması, ictimai münasibətlərin nizamlaşdırılmasında dövlət idarəetmə orqanlarının rolunun və yerinin, habelə məqsəd və vəzifələrinin öyrənilməsi, idarə olunan obyektin vəziyyətinə dövlət inzibatlığının təsirinin aşkara çıxarılması və dövlət orqanlarının idarəetmə fəaliyyətinin nəticəliliyinin qiymətləndirilməsi meyarlarını əsaslandırılması ilə bağlı problemlərin konstitusion – hüquqi aspektlərinin tədqiqatının aparılması zəruridir. Dövlət orqanlarının idarəetmə fəaliyyətinin qiymətləndirilməsi meyarlarının olmaması dövlətin ictimai proseslərə müdaxiləsinin müəyyən edilməsi sahəsində sonsuz mübahisələrə səbəb olmuşdur. Müasir dövrdə dövlət orqanlarının idarəetmə fəaliyyətinin hüquqi bazasının təkmilləşdirilməsi, ölkənin sosial – iqtisadi inkişafının sürətləndirilməsi, ölkə iqtisadiyyatının qeyri-neft iqtisadiyyat qabiliyyətinin artırılması, ixracyönümlü, qeyri-neft iqtisadiyyatının əsaslı inkişafının təmin edilməsi, insan kapitalından səmərəli istifadə edilməsi tələblərini əks etdirən dövlət idarəetmə sisteminin inkişafı konsepsiyasının əsaslandırılması problemi konstitusion hüquqi çərçivəsində öz həllini tapmalıdır.

Yuxarıda ifadə olunanlar Azərbaycan Respublikasının dövlət idarəetmə sisteminin fəaliyyətinin konstitusion – hüquqi əsasların yaradılması, dövlət idarəetmə orqanlarının fəaliyyətinin qiymətləndirilməsi və dövlət idarəetmə mexanizminin inkişafı konsepsiyasının əsaslandırılması ilə bağlı problemlərin konstitusion – hüquqi aspektdə kompleks şəkildə tədqiq olunmasının zəruriliyini təsdiq edir və bu mövzunun aktuallığını göstərir.

Azərbaycan Respublikasının dövlət hakimiyyətinin orqanlarının

konstitusion – hüquqi statusunun təhlilinə həsr olunmuş tədqiqat işlərində bu və ya digər idarəetmə orqanlarının fəaliyyətinin konstitusion – hüquqi əsasları nəzərdən keçirilir, prezidentin və ya parlamentin hüquqi statusunun müəyyən edilməsi üçün çoxlu sayda xarici ölkələrin müvafiq institutlarının formalaşdırılması təcrübəsi təhlil edilir.

Dövlət idarəetmə sisteminin tədqiqinə sistemli yanaşmanın olmaması dövlət idarəetmə sisteminin fəaliyyətinin konstitusion – hüquqi tənzimlənməsi və inkişafı konsepsiyasının yaradılması problemlərinin həlli istiqamətlərinin əsaslandırılmasını zəruri edir.

**Tədqiqatın obyektini və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının dövlət idarəetmə sisteminin quruluşu, dövlət idarəetmə orqanlarının fəaliyyətinin inkişafı və təkmilləşdirilməsinin konstitusion – hüquqi istiqamətləri təşkil edir.

Tədqiqatın predmetini müasir mərhələdə dövlət idarəetmə münasibətlərinin tənzimlənməsinin konstitusion - hüquqi əsaslarının təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri** müasir dövlət idarəetmə orqanlarının fəaliyyətinin mövcud vəziyyətinin qiymətləndirilməsi əsasında dövlət idarəetmənin təkmilləşdirilməsi ilə bağlı konstitusion - hüquqi problemlərin həlli istiqamətlərini müəyyən etməkdir.

Dövlət idarəetmə sisteminin konstitusion - hüquqi tədqiqatının qarşısında qoyulan məqsədlərdən biri Azərbaycan Respublikasının müasir dövlət idarəetmə islahatlarının nəticələrinin qiymətləndirilməsidir.

Tədqiqat eyni zamanda Azərbaycan Respublikasının inkişafına müasir mərhələsində dövlət idarəetmə sisteminin təşkili və inkişafının yeni konsepsiyasının modelinin əsaslandırılması məqsədini də daşıyır.

Göstərilən məqsədlərə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələr qoyulur:

- Dövlət idarəetmə sisteminin anlayışının və quruluşunun mahiyyətini açmaq;
- Dövlət idarəetmə fəaliyyətinin konstitusion - hüquqi əsaslarını müəyyən etmək;
- Azərbaycan Respublikasının müasir dövlət idarəetmə islahatlarının nəticələrini aşkara çıxarmaq və təhlil etmək;

- Dövlət idarəetmə orqanlarının monitorinqinin aparılması istiqamətini müəyyən etmək;

- Dövlət idarəetmə orqanlarının fəaliyyətinin monitorinqinin aparılması qaydasının mahiyyətini açmaq;

- Dövlət idarəetmə orqanlarının fəaliyyətinin təşkilinin konstitusion - hüquqi qaydasını müəyyən etmək;

- Dövlət idarəetmə sisteminin inkişafının konseptual modelini əsaslandırmaq;

- Azərbaycan Respublikasının dövlət idarəetmə orqanlarının daxili quruluşunun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək.

**Tədqiqat metodları.**

Tədqiqatın nəzəri əsasını dövlət idarəetmə sisteminin inkişafı problemlərinin müasir tədqiqatlarının əsərlərində, həlli dövlət rəhbərlərinin dövlət idarəetməsinin təkmilləşməsinə dair bəyanatlarında irəli sürülən elmi-praktiki əhəmiyyətli müddəalar təşkil edir.

Dövlət idarəetməsinin təkmilləşdirilməsi konsepsiyasının əsaslandırılması üçün dissertant tərəfindən müqayisəli - tarixi metod tətbiq edilmişdir ki, bu da dövlət idarəetmə sistemində struktur islahatların istiqamətlərinin müəyyən edilməsinə imkan vermişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyanın müdafiəyə çıxarılan əsas müddəaları:

1. Müasir konstitusiya hüququnda dövlət idarəetməsinin cəmiyyətin dövlət tərəfindən təşkili, dövlət və cəmiyyət arasında münasibətlərinin səmərəli tənzimlənməsinin sahəsində qarşıya qoyulan məqsədlərə nail olunmasına yönəldilən hüquqi - siyasi, iqtisadi və sosial xarakterli tədbirlər sistemi kimi nəzərdən keçirilir.

2. Dövlət idarəetmə sistemində həyata keçirilən struktur islahatların məqsədi dövlət idarəetməsinin təkmilləşdirilməsi və dövlət hakimiyyətinin konstitusion - hüquqi təminatının gücləndirilməsi yolu ilə dövlət orqanlarının idarəetmə fəaliyyətinin səmərəliliyinin təmin edilməsindən ibarətdir.

3. Dövlət orqanlarının idarəetmə fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinin iki mərhələdə aparılması təklif edilir.

4. Dövlət idarəetmə orqanlarının əsas vəzifəsinin ölkənin idarəolunması funksiyasının realizə edilməsi və cəmiyyətin ümumi işlərinin vahid mərkəzdən uzlaşdırılması və nizamlaşdırılmasından iba-

rət olması barədə müddəalar.

5. Dövlət idarəetməsinin səmərəli təşkil edilməsi məqsədilə icra hakimiyyəti sisteminin quruluşunda üç səviyyənin fərqləndirilməsi zəruriliyi vurğulanır.

6. Dövlət idarəetmə orqanlarının dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsində iştirakının qiymətləndirilməsi meyarları nəzərə alınmaqla Azərbaycan Respublikasının icra hakimiyyəti sisteminin iki səviyyədən ibarət olan institusional quruluşa malik olması göstərilir.

7. İcra hakimiyyəti orqanları sistemində struktur islahatların nəticəsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarının təşkilinin prinsipləri haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi zəruriliyi əsaslandırılır.

8. Müasir mərhələdə dövlət idarəetmə sisteminin inkişafının konseptual əsaslarını xarakterizə edən müddəaların müəyyən edilməsi

9. Dövlət idarəetmə orqanlarının quruluşunun təkmilləşdirilməsi özünün mövcudluğunu doğrultmayan orqanların ləğv edilməsi, yeni dövlət idarələrinin yaradılması, mövcud dövlət orqanlarına hüquqi mövqelərinin gücləndirilməsi ilə əlaqədar problemlərin həlli vasitəsi kimi nəzərdən keçirilmişdir. Bu kontekstdə aşağıdakı problemlərin konstitusion - hüquqi qayadada həll edilməsi zəruridir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Respublikasında dövlət idarəetməsinin təkmilləşdirilməsi problemlərinin kompleks təhlili ilə müəyyən edilir.

Dissertasiyanın müdafiəyə çıxarılan əsas müddəaları:

1. Müasir konstitusiya hüququnda dövlət idarəetməsinin cəmiyyətin dövlət tərəfindən təşkili, dövlət və cəmiyyət arasında münasibətlərinin səmərəli tənzimlənməsinin sahəsində qarşıya qoyulan məqsədlərə nail olunmasına yönəldilən hüquqi - siyasi, iqtisadi və sosial xarakterli tədbirlər sistemi kimi nəzərdən keçirilir.[2] Bu mövqedən dissertasiya ölkənin idarə olunması üzrə hakimiyyət səlahiyyətlərinin ali qanunverici və ali icra hakimiyyəti orqanları arasında optimal bölgüsü ilə bağlı məsələnin səlahiyyətlərin funksional adekvatlı-

---

[2] Ağamalıyev Ü. Dövlət  idarəetməsinin bəzi xüsusiyyətləri // - Bakı: Milli Aviasiya Akademiyasının elmi məcmuələr jurnalı – 2018. Cild 20 N1. – s.59-63

ğı meyarı nəzərə alınmaqla həll edilməsinin məqsədəuyğunluğu göstərilir. Yalnız bu halda konstitusion dövlət səlahiyyətlərinin hakimiyyət orqanları arasında bölgüsündə tarazlığın təmin olunması mümkün ola bilər.

2. Dövlət idarəetmə sistemində həyata keçirilən struktur islahatların məqsədli dövlət idarəetməsinin təkmilləşdirilməsi və dövlət hakimiyyətinin konstitusion - hüquqi təminatının gücləndirilməsi yolu ilə dövlət idarəetmə orqanlarının fəaliyyətinin səmərəliliyinin təmin edilməsindən ibarətdir. Dissertasiyada dövlət idarəetmə fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi meyarı qismində idarəetmənin resurs məsrəfləri ilə idarəetmə fəaliyyətinin nəticələri arasında nisbətin nəzərə alınmasına dair təklif irəli sürülür.

3. Dövlət idarəetmə orqanlarının fəaliyyətinin nəticələrinin monitorinq üsulu ilə qiymətləndirilməsinin iki mərhələdə aparılması təklif edilir: birinci mərhələ: dövlət idarəetmə orqanının funksional vəzifələrinin yerinə yetirilməsi vəziyyətinin qiymətləndirilməsi; ikinci mərhələ: idarəetmə qərarlarının, sərəncamların, tapşırıqların və digər normativ aktların icra olunmasının hüquqi, iqtisadi, təşkilati, sosial - psixoloji amillərdən asılılıq dərəcəsinin qiymətləndirilməsi.

4. Dövlət idarəetmə orqanlarının əsas vəzifəsinin ölkənin idarəolunması funksiyasının realizə edilməsi və cəmiyyətin ümumi işlərinin vahid mərkəzdən uzlaşdırılması və nizamlaşdırılmasından ibarət olduğunu əsas götürərək və icra hakimiyyətini səciyyələndirən hüquqi əlamətlərin təhlili əsasında Azərbaycan Respublikasının dövlət hakimiyyəti sistemində müstəqil dövlət nəzarəti institutunun təsis edilməsi, dövlətin qanunlarının icrası vəziyyətinin və icra hakimiyyəti orqanlarının icra - sərəncam fəaliyyətinin nəticələrinin yoxlanılması və qiymətləndirilməsi üzrə səlahiyyətlərin dövlət nəzarəti orqanına həvalə edilməsi haqqında təklif irəli sürülür.

5. Dövlət idarəsinin səmərəli təşkil edilməsi məqsədilə icra hakimiyyəti sisteminin quruluşunda üç səviyyənin fərqləndirilməsi zəruridir[3]: birinci səviyyə Azərbaycan Respublikasının Prezidenti, Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti,

---

[3] Ağamalıyev Ü. Dövlət idarəetmə sisteminin qurulmasının konstitusion-hüquqi aspektləri // - Bakı: Qanun elmi hüquq jurnalı – 2016. 12 (266). – s.57-63

ikinci səviyyəli - ali dövlət hakimiyyəti vəzifə və səlahiyyətlərinin icrasını təmin edən dövlət orqanları (nazirlik, komitə, xidmət, agentlik, publik hüquqi şəxs və s.), üçüncü səviyyə yerli icra hakimiyyətləri ilə təmsil olunur. İcra hakimiyyəti orqanlarının yaradılmasının fəaliyyətinin Azərbaycan Respublikası Konstitusiyası ilə tənzimlənməsi vəziyyətinin tədqiqi birinci və üçüncü səviyyələri təmsil edən dövlət orqanlarının yaradılması və fəaliyyətinin konstitusion normalarla tənzimlənməsi vəziyyətinin olduğunu, ikinci səviyyəni təmsil edən orqanların hüquqi statusunu təsbit edən normaların Əsas Qanunla nəzərdə tutulmadığını təsdiq edir. Göstərilən problemin həllinin zəruri şərti kimi ümumdövlət səlahiyyətləri çərçivəsində həll edilən məsələlərin vahid siyahısının Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində təsbit edilməsi barədə təklif əsaslandırılır.

6. Dövlət idarəetmə orqanlarının dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsində iştirakının qiymətləndirilməsi meyarları nəzərə alınmaqla Azərbaycan Respublikasının icra hakimiyyəti sisteminin iki səviyyədən ibarət olan institusional quruluşa malik olması, o cümlədən birinci səviyyənin fəaliyyətinə rəhbərlik funksiyası Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilən icra hakimiyyəti orqanları və bu orqanların səlahiyyətlərinin icrasını bilavasitə təmin edən təşkilatlar: ikinci səviyyənin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tabelliyində olan icra hakimiyyəti orqanların səlahiyyətlərinin icrasını təmin edən təşkilatlarla təmsil olunmasına dair nəticə əsaslandırılır. İcra hakimiyyəti orqanlarının düzgün təyin edilməsi məsələnin həllində xüsusi rol oynayır. Müvafiq sahədə dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi üzrə səlahiyyətlər nazirliyə, subyektlərin fəaliyyəti üzərində dövlət nəzarətinin aparılması sahəsində səlahiyyətlər dövlət xidmətinə, dövlətin adından əhaliyə və müəssisələrə idarəetmə xidmətlərinin göstərilməsi vəzifəsi dövlət agentliyinə həvalə olunmuşdur.

7. Dövlət xidmətinin, agentlərin, publik hüquqi şəxslərin, administrasiyaların, komissiyaların, şuraların, fondların konseptual əsas olmadan yaradılması icra hakimiyyəti sistemində tabelilik və hakimiyyət səlahiyyətlərinin bölgüsündə subordinasiyanın pozulması və mərkəzi icra hakimiyyəti orqanlarının funksiyalarının süni surətdə məhdudlaşdırılması ilə nəticələnir. İcra hakimiyyəti orqanları siste-

mində struktur islahatların nəticəliliyini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarının təşkilinin ümumi prinsipləri haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi zəruridir.

8. Müasir mərhələdə dövlət idarəetmə sisteminin inkişafının konseptual əsaslarını xarakterizə edən müddəalar aşağıdakılardır[4]:

- ali icra hakimiyyəti orqanının fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikasının qanunun qəbul edilməsi;
- dövlət idarəetməsində əks mərkəzləşmənin üç istiqamət üzrə:

a) Azərbaycan Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında; b) dövlətlə bələdiyyələr arasında; c) dövlətlə publik hüquqi şəxslər arasında aparılması;

- Qarabağla bağlı münaqişənin həllini nəzərdə tutan hərbi-siyasi strategiyasının hazırlanması, onun məlumat bazasını, dəqiqləşdirilməsi, Azərbaycan rayonlarının ermənilər tərəfindən işğalının bütün təşkilatlarının aşkara çıxarılması və Beynəlxalq tribunal vasitəsilə məsuliyyətə cəlb edilməsi;
- insan resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətində kooperativ hərəkatının genişləndirilməsi, gizli sahibkarlıq obyektlərinin leqallaşdırılması yolu ilə işsizliyin aradan qaldırılmasını təmin edən hüquqi bazanın təkmilləşdirilməsi;
- dövlət idarəetməsinə kadrların cəlb edilməsi və idarəetmə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi meyarlarını təsbit edən hüquqi aktın qəbul edilməsi;
- dövlət idarəetməsinin müasir informasiya texnologiyalarının tətbiq edilməklə həyata keçirilməsi və elektron hökumətin yaradılması ilə əlaqədar təhlükəsizlik problemlərinin həll edilməsi məqsədilə "Dövlət idarəetmə sistemində yüksək texnologiyaların tətbiqinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası qanununun qəbul edilməsi;
- dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin monitorinq üsulu ilə qiymətləndirilməsini tənzimləyən hüquqi aktın qəbul edilməsi.

---

[4] Ağamalıyev Ü. Dövlət idarəetmə sisteminin inkişafının konseptual əsasları // - Bakı: Aviakosmik məsələlərin həllində Gənclərin yaradıcı potensialı III Beynəlxalq Elmi-Praktiki konfrans – 2018. 12 (266). – s.289-291

9. Dövlət idarəetmə orqanlarının daxili quruluşunun təkmilləşdirilməsi özünün mövcudluğunu doğrultmayan idarəetmə orqanının ləğv edilməsi, yeni dövlət idarəsinin yaradılması, mövcud dövlət orqanlarına hüquqi mövqelərinin gücləndirilməsi ilə əlaqədar problemlərin həlli vasitəsi kimi nəzərdən keçirilmişdir.[5]

9.1 Prezidentin Milli Məclisi buraxmaq hüququnun hüquqi realizə formalarının qanunla müəyyənləşdirilməsi;

9.2 Prezidentin fəaliyyəti üzərində ümumdövlət nəzarətinin hüquqi realizə formalarının qanunla müəyyənləşdirilməsi;

9.3 Azərbaycan Respublikası "Konstitusiyasının" Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasına aid normasının təcrübədə tətbiq edilməsi məqsədilə Əsas Qanunun 109-cu ("Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri) və 118-ci ("Azərbaycan Respublikası Baş nazirinin təyin edilməsi qaydası) maddələrinə müvafiq əlavələrin edilməsi;

9.4 Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması məsələsinin Konstitusiyanın 95-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Milli Məclisi tərəfindən həll edilən məsələlərin siyahısının tərkibinə daxil edilməsi;

9.5 Azərbaycan Respublikası Milli Məclisinin konstitusion səlahiyyətlərinin barəsində Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edilən məsələlərin həlli istiqamətləri üzrə təsbit edilməsi;

9.6 Azərbaycan Respublikasının xarici dövlətlərin regional birliklərinə, hərbi bloklara qoşulması, milli təbii sərvətlərin qeyri- rezidentlərin istifadəsinə verilməsi məsələlərinin ümumxalq səsverməsilə (referendumla həll edilməsi);

9.7 Konstitusiyanın mətnində dəyişikliklərin qəbul edilməsinin zəruriliyi; xalqın maraqlarına uyğunluğu və məqsədləri hüquqi cəhətdən əsaslandırılmalıdır. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyanın 153-cü ("Azərbaycan Respublikası Konstitusiyasının mətndə dəyişikliklərin təklif edilməsi qaydası") maddəsinin aşağıdakı məzmunda yenidən formula edilməsi məqsədəuyğundur:

- "Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyi-

---

[5] Атаманчук, Г.В. Обеспечение рациональности государственного управления / Г.В.Атаманчук. – Москва:Юридическая литература, – 1990. – 294

şiklikləri Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti təklif etdikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyi alınır".

9.8 Azərbaycan Respublikası Milli Məclisinin Komitələrinin və komissiyalarının qanunvericilik təşəbbüsü hüquqlarının və parlament nəzarəti sahəsində səlahiyyətlərin Konstitusiyada təsbit edilməsi;

10. Dövlətin maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə:

a) bank fəaliyyətinin lisensiyalaşdırılması funksiyasının Azərbaycan Respublikasının Mərkəzi Bankının səlahiyyətinə aid edilməsi;

b) Azərbaycan Respublikasında sığorta fəaliyyətinin, qiymətli kağızların emissiyası və dövriyyəsinin tənzimlənməsi, maliyyə monitorinqinin aparılması funksiyalarının Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin səlahiyyətinə aid edilməsi;

c) maliyyə bazarlarının iştirakçılarının maliyyə əməliyyatlarının qanuniliyinin qiymətləndirilməsi və nəzarət funksiyalarının "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına həvalə edilməsi təklif edilir.

11. Dövlət idarəetməsinin təkmilləşdirilməsinin təklif edilən konseptual modelinin qəbul edilməsi idarəetmənin mövcud resurslarından səmərəli istifadə edilməsi yolu ilə dövlət - cəmiyyət münasibətlərinin tənzimlənməsi sahəsində pərakəndəliyi aradan qaldırmağa, idarəetmə fəaliyyətinin konstitusion - hüquqi bazasını təkmilləşdirməyə imkan verəcək.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Azərbaycan Respublikasının dövlət idarəetmə sisteminin fəaliyyətinin konstitusion - hüquqi əsasların, dövlət idarəetmə fəaliyyətinin tənzimlənməsi mexanizminin və dövlət idarəetmə sisteminin inkişafı konsepsiyasının əsaslandırılması problemlərinin dissertasiyada ardıcıllıqla tədqiq olunması müasir mərhələyə uyğun yeni dövlət idarəetmə mexanizminin yaradılması istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Tədqiqatın nəticəsində əldə edilmiş nəzəri bilikləri dövlət idarəetmə orqanlarının fəaliyyətinin qiymətləndirilməsi, onun daxili quruluşunun təkmilləşdirilməsi, idarəetmə fəaliyyətinə xas olan nöqsanların aşkara çıxarılması və ara-

dan qaldırılması üçün mühüm əhəmiyyət kəsb edir. Dissertasiya işində əsaslandırılmış nəticə və təkliflər dövlət idarəetməsinin təşkilinin konstitusion - hüquqi aspektlərinin təhlilini dərinləşdirməyə və idarəetmə fəaliyyətinin cəmiyyətin müasir tələbləri və imkanları nəzərə alınmaqla modernləşdirilməsi probleminin həllinə kömək edəcək.

Tədqiqatın gedişində əsaslandırılmış müddəalar qanunverici və icra hakimiyyəti orqanlarının səviyyəsində dövlətçiliyin möhkəmləndirilməsi üzrə idarəetmə qərarlarının qəbul edilməsində, dövlət orqanlarının fəaliyyətinin nəticəliliyinin qiymətləndirilməsində, dövlət idarəetmə sistemində struktur islahatların aparılmasında və idarəetmə sisteminin inkişafı konsepsiyasının işlənilməsində tətbiq edilə bilər.

Dövlət idarəetmə fəaliyyətinin monitorinqinin dissertasiyada göstərilən prinsiplər əsasında tədqiqi dövlət idarəetmə orqanlarının fəaliyyət işinin nəticəliliyinin qiymətləndirilməsi üçün metodoloji mənbə qismində istifadə edilə bilər.

Təqdimatın praktiki əhəmiyyəti həmçinin ondan ibarətdir ki, onun nəticə və tövsiyyələrinin "Konstitusiya hüququ", "İnzibati hüquq", "Dövlət və bələdiyyə idarəetməsi" kimi fənləri tədrisində istifadəsi mümkündür.

**Aprobasiyası və tətbiqi.**

Dissertasiya işinin əsas müddəaları və nəticələri öz əksini mötəbər elmi nəşrlərdə çap olunmuş məqalələrdə, elmi konfranslarda məruzələrdə tapmışdır. Dissertasiyanın mövzusu üzrə işin nəzəri prinsiplərini və nəticələrini əks etdirən 7 məqalə dərc edilmişdir və 3 beynəlxalq konfransda müvafiq məqalələrlə iştirak edilmişdir.

Tədqiqat nəticələrinin praktiki tətbiqinin səmərəliliyi dissertasiyada nəzəri və metodoloji müddəaların işlənməsi ilə müəyyən edilir, işdə idarəetmə üzrə konkret tövsiyələr öz əksini tapır.

Elmi tədqiqatın nəticələrinin tətbiqi həm də onların tədris, tədris-metodiki vəsaitlərə və dərsliklərə daxil edilməklə tədris prosesində istifadəsini nəzərdə tutur.

Dissertasiya strukturu tədqiqatın məqsəd və vəzifələri ilə müəyyən edilir. İş giriş, üç fəsil, nəticə və biblioqrafiyadan ibarətdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya AMEA-nın Hüquq və İnsan Haqları institutunun Elmi Şurasının 15 oktyabr 2021-ci il tarixli iclasında müzakirə edilmiş və Konstitu-

siya hüququ, bələdiyyə hüququ ixtisası üzrə müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 24502 işarədən, I Fəsil 75296 işarədən, II Fəsili 74429 işarədən, III Fəsili 67891, Nəticə 13115 işarədən, İstifadə edilmiş ədəbiyyat siyahısı 21857 işarədən ibarət olmaqla cəmi 279178 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı araşdırılır, onun işlənmə dərəcəsi, obyektivi və predmeti, məqsəd və vəzifələri, nəzəri - metodoloji və normativ - hüquqi əsasları, elmi yeniliyi, praktiki əhəmiyyəti işin aprobasiyası və strukturu ifadə olunur.

**"Azərbaycan Respublikasının dövlət icra hakimiyyəti orqanlarının konstitusion - hüquqi təbiəti"** adlanan birinci fəslin **"Dövlət idarəetməsinin anlayışı və quruluşu"** adlı birinci paraqrafında dövlət idarəetməsi cəmiyyətin vəziyyətinə və inkişafına səmərəli təsir göstərmək üçün müxtəlif idarəetmə üsulları, vasitələri və institutarı vasitəsilə həyata keçirilən fəaliyyət kimi tədqiq olunub. Qeyd olunub ki, dövlət özünün məqsəd və funksiyalarının realizəsini, xüsusilə dövlət - hakimiyyət xarakterli tədbirlərin həyata keçirilməsi vəzifələrini həll edən mürəkkəb quruluşa malik olan orqanlar yaradır. Bu orqanların tərkibini yaradan orqanlar qanunvericilik, qanunların icrası, vətəndaşların məhkəmə müdafiəsi funksiyalarını həyata keçirərək dövlət idarəetmə sistemini təşkil edirlər. Azərbaycan Respublikası Konstitusiyasının dövlət hakimiyyəti ilə bağlı normalarının müqayisəli təhlili qanunverici orqanın, icra hakimiyyəti orqanının və məhkəmə hakimiyyətinin dövlət idarəetməsinin təşkili və həyata keçirilməsində yerinə yetirdikləri funksiyaların xarakterizinə uyğun olaraq həmin orqanlara həvalə edilən səlahiyyətlərin miqyası barədə fikir yürütməyə imkan verir.

Dövlət idarəetməsinin qurulmasının başlıca istiqaməti cəmiyyətin həyat fəaliyyəti ilə bağlı siyasi - hüquqi, sosial - iqtisadi və sair problemlərin həllində dövlət hakimiyyəti orqanlarının idarəetmə fəaliyyətinin səmərəliliyi ilə müəyyən edilir. Dövlət orqanlarının qurulu-

şunun və onun fəaliyyətinin səmərəliliyi anlayışının mühüm cəhətlərinin təhlilindən belə qənaətə gəlmək mümkündür ki, dövlət hakimiyyəti orqanlarının işinin səmərəliliyi xeyli dərəcədə əhalinin, sosial qrupların və hər bir insanın maraqlarının müdafiəsi problemlərinin dövlət idarəçiliyi mexanizmlərinin köməyi ilə müvəffəqiyyətlə həll edilməsi səviyyəsindən asılıdır. Dissertantın fikrincə, dövlət idarəçiliyinin səmərəli təşkili edilməsi dövlətin idarəetmə sisteminin real bütövlüyü, ölkənin idarə olunmasında iştirak edən bütün subyektlərin ümumdövlət əhəmiyyətli məsələləri həll etmək əzmi ilə müəyyən edilməlidir. Dövlət orqanlarının quruluşunun optimallığı, onun fəaliyyətinin keyfiyyəti, əhalinin dövlət hakimiyyətə etiqad səviyyəsi - dövlət idarəetməsinin səmərəli təşkil edilməsi probleminin həllinə bilavasitə, təsir göstərilən mühüm amillər qrupundan biri hesab edilməlidir.

**"Dövlət idarəetməsinin konstitusion - hüquqi əsasları"** adlanan ikinci paraqrafda göstərilir ki, dövlət idarəetməsinin təşkili və onun fəaliyyət göstəricisi ictimai həyatın bütün sahələrinin tarazlı inkişafının təmin edilməsinin zəruri ilkin şərti olduğuna görə, bu sistemin mövcudluğu xeyli dərəcədə dövlət idarəetmə fəaliyyətinin özünün konstitusion - hüquqi tənzimlənməsi səviyyəsindən asılıdır. Qeyd olunub ki, Konstitusiya dövlət hakimiyyətinin təşkili, müvafiq dövlət orqanlarının strukturunu, onların funksiyalarını və fəaliyyət sahəsini, mərkəzi idarəetmə orqanları ilə onun tərkib hissələrinin qarşılıqlı münasibətlərini tənzimləyir. Konstitusiya hüququnun normaları ilə tənzimlənən dövlət cəmiyyət münasibətlərinin struktur təhlili dövlət idarəetməsində yaranan münasibətlərin tənzimlənməsinin aşağıdakı aspektlərinin fərqləndirməyə imkan verir:

1) dövlət idarəetməsinin təşkili və inkişafı konsepsiyasının yaradılması;

2) dövlət hakimiyyətinin təşkilinin konstitusion - hüquqi təminatının yaradılması;

3) dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsi və qiymətləndirilməsi.

Dövlət idarəetməsinin konstitusion - hüquqi əsaslarının nəzəri təhlili Azərbaycan Respublikasında dövlət idarəetməsinin təkmilləşdirilməsi ilə bağlı problemlərin həllində mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, dissertasiyada dövlət idarəetmə konsepsiya-

sı çərçivəsində dövlət siyasətinin məqsədləri və vəzifələri müəyyən edilir.

Birinci fəslin **"Azərbaycan Respublikasının müasir dövlət idarəetmə islahatlarının nəticələrinin hüquqi qiymətləndirilməsi"** adlanan üçüncü paraqrafında göstərilir ki, dövlət idarəetməsi sahəsində islahat - mövcud ictimai quruluşun əsasları dəyişilmədən, cəmiyyətin həyatının hər hansı sahəsinin idarə olunması vasitələrinin, qaydalarının, üsullarının kökündən dəyişdirilməsinə, yenidən qurulmasına və təshih edilməsinə yönəldilən dövlət - hakimiyyət xarakterli tədbirlər sistemidir. Qeyd olunmuşdur ki, dövlət səviyyəsində idarəetmənin təşkilati strukturunun təkmilləşdirilməsi idarəetmə orqanlarında ixtisarların aparılması ilə tamamlanmalıdır.

Dissertasiyada müəllif Azərbaycan Respublikasında dövlət idarəetməsinin inkişaf etdirilməsinin aşağıdakı istiqamətlərini müəyyən edir:

1. Dövlət idarəetmənin hüdudlarının funksional meyarlar əsasında tənzimlənməsini təmin edən "Dövlət idarəetmə fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi.

2. Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi məqsədilə "Dövlət nəzarətinin təşkili haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi.

3. Dövlət idarəetmə orqanlarına demokratikləşdirilməsi.

4. Dövlət idarəetmə xidmətlərinin keyfiyyətinin və onların təşkili mexanizminin təkmilləşdirilməsi, dövlət qulluqçuları ilə vətəndaşlar arasında münasibətlərinin sadələşdirilməsi.

5. Dövlət qulluğunun təşkilinin sadələşdirilməsi və insan resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi.

6. Dövlət orqanlarının idarəetmə fəaliyyətinin monitorinqinin aparılması mexanizminin yaradılması.

7. Dövlət orqanlarının vəzifəli şəxslərinin fəaliyyəti üzərində nəzarət sisteminin təkmilləşdirilməsi.

8. Dövlətin, maliyyə fəaliyyətinin və büdcənin idarə olunması mexanizminin təkmilləşdirilməsi məqsədilə "Dövlət maliyyə nəzarətinin təşkili haqqında" Azərbaycan Respublikasının qəbul edilməsi.

9. Dövlət idarəetməsinin təkmilləşdirilməsi və şəffaflığının tə-

min edilməsi ideyasına "Elektron hökuməti"in formalaşdırılmasının konstitusion - hüquqi əsaslarının yaradılması.

10. Konstitusion - siyasi münasibətlərin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi məqsədi ilə "Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişiklikləri Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti təklif etdikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Azərbaycan Respublikasının seçki hüquqi olan 40 min vətəndaşının və Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin rəyi alınır" məzmunla müddəanın Azərbaycan Respublikası Konstitusiyasının 153-cü ("Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərin təklif edilməsi qaydası") maddəsi ilə təsbit edilməsi.

Dissertasiyanın **"Dövlət idarəetmə fəaliyyətinin konstitusion - hüquqi tənzimlənməsi mexanizmi"** adlanan ikinci fəsiləsinin **"Dövlət idarəetmə fəaliyyətinin monitorinqi"** adlı birinci paraqrafına dövlət - cəmiyyət münasibətlərinin inkişafının yeni mərhələsində idarə edən subyekt kimi dövlətlə idarə olunan obyekti hesab edilən cəmiyyət arasında əks əlaqələrin tənzimlənməsinin dövlət idarəetmə sisteminin təkmilləşdirilməsində və dövlət orqanlarının fəaliyyətinin nəticəliliyinin təmin edilməsində rolunun yüksəlməsini etiraf edərək, icra hakimiyyəti orqanlarının fəaliyyətinin monitorinqinin aparılmasına dair müddəanın qüvvədə olan "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu (21.10.2005-ci il) ilə təsbit edilməsinin zəruriliyi əsaslandırılır. Lakin dövlət səviyyəsində həyata keçirilən tədbirlərin sosial səmərəliliyinin əsaslandırılması metodologiyasının indiyədək işlənilməməsi dövlət idarəetmə fəaliyyətinin monitorinqinin aparılmasında çətinlik yaradır. Bunu nəzərə alaraq, dissertasiyada dövlət orqanlarının fəaliyyətinin nəticəliliyinin qiymətləndirilməsi üçün monitorinq üsulunun tətbiq edilməsinin aşağıdakı zəruri ilkin şərtləri əsaslandırılmışdır:

1. Dövlət idarəetməsində həyata keçirilən fəaliyyətin Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olması.

2. Dövlət idarəetməsi sahəsində həyata keçirilən tədbirin səmərəliliyi. Həyata keçirilən tədbirin səmərəliliyinin: a) tədbirin həyata keçirilməsinin zəruriliyinin və məqsədəuyğunluğunu təsdiq edən göstəricilər və b) idarəetmə tədbirinin həyata keçirilməsinin nəticələ-

rini ifadə edən göstəricilər vasitəsilə qiymətləndirilməsinin nəticələrini ifadə edən göstəricilər vasitəsilə qiymətləndirilməsinə dair müddəa əsaslandırılır. Bu müddəaya uyğun olaraq dissertasiyada 2016-cı il 26 sentyabr tarixdə Azərbaycan Respublikasında referendumun keçirilməsi ilə bağlı dövlət tədbirlərinin monitorinqinin aparılmasının modeli göstərilmişdir.

3. Dövlət idarəetmə fəaliyyətinin fasiləsizliyi. Dövlət idarəetmə orqanlarının yerli özünüidarəetmənin təşkili üzrə fəaliyyətinin monitorinqi bələdiyyələrin fəaliyyətinin tənzimlənməsi sahəsində idarəetmə fəaliyyətinin səmərəliliyini aşkara çıxarmağa imkan verə bilər.

4. İdarəetmə fəaliyyətinin qiymətləndirilməsinin müqayisəliliyi monitorinq zamanı bu prinsipə əməl edilməsi daxili ictimai-siyasi vəziyyəti xarakterizə edən göstəriciləri ictimai proseslərə dövlət orqanlarının müdaxilə etmək səviyyəsi, həyata keçirilən hüquqi, iqtisadi və təşkilati tədbirlərin cari və prespektiv planda qarşılıqlı əlaqələndirilməsi dərəcəsi, dövlətin daxili və xarici siyasətinin ardıcıllığı və hüquqi varisliyi nəzərə alınmaqla təhlil etməyə imkan verir.

Dissertasiyanın ikinci fəslinin **"Dövlət idarəetmə fəaliyyətinin təşkilinin konstitusion - hüquqi qaydası"** adlanan ikinci paraqrafında göstərilir ki, dövlət idarəetmə fəaliyyətinin təşkili dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi üçün idarədən subyekt tərəfindən idarə olunan obyektə, onun vəziyyətinə və davranışına təsir edilməsini ifadə edir. Dövlət idarəetmə fəaliyyətinin təşkilinin konstitusion - hüquqi qaydası dissertasiyada bu fəaliyyətin daxili strukturu nəzərə alınmaqla iki istiqamət üzrə tədqiq olunur:

1) dövlət idarəetməsin təşkilatı strukturunun yaradılması qaydasının konstitusion - hüquqi qiymətləndirilməsi;

2) dövlət idarəetmə fəaliyyətinin təşkilinin konstitusion - hüquqi təhlili.

Tədqiqatın birinci istiqamət üzrə aparılmasının başlıca vəzifəsi dövlət idarəetmə qaydaları ilə həmin qaydaların təcrübədə tətbiqinin nəticələri arasında mövcud olan kənarlaşmaları aşkar etmək, onların səbəblərini göstərmək və aradan qaldırılması yollarını tapmaqdır. Qeyd olunub ki, dövlət orqanlarının köməyi ilə cəmiyyət və hakimiyyət qarşılıqlı surətdə fəaliyyət göstərilir, əhalinin həyat fəaliyyətinin müxtəlif sahələrinin inkişafının dövlət tərəfindən tənzimlənməsi təmin edilir.

Dövlət orqanlarının idarəetmə və təşkilatçılıqdan ibarət olan fəaliyyəti hüquqyaratma, hüquqtətbetmə və hüquqmühafizə formalarında həyata keçirilir. İcra hakimiyyətinin həyata keçirilməsi dövlət idarəetmə orqanlarının başlıca funksiyasını təşkil edir. İcra hakimiyyətinin idarəetmə fəaliyyətinə xas fərqli cəhətlərə aşağıdakılar aid edilir:

- fəaliyyətin təşkiledici xarakter daşıması;
- idarəetmə üsulunun universal xarakterli olması;
- idarə olunan obyektə stimullaşdırıcı, cəzalandırıcı və səfərbəredici təsirin mükafatlandırılma, fiziki təcridetmə, inzibati cərimə və digər məcburiyyət tədbirlərin həyata keçirilməsi ilə təmin olunması;
- idarəetmə tədbirlərinin unitar dövlətin inzibati ərazi vahidləri üzrə konkret sayda insan kontingentinin iştirakı, real modeli, əmək, maliyyə və informasiya resurslarının cəlb edilməsi, maddi stimullaşdırma və motivləşdirmə vasitələrindən istifadə etməklə həyata keçirilməsi.

Dissertasiya işinin **"Azərbaycan Respublikasının dövlət idarəetmə sisteminin inkişafı konsepsiyası"** adlanan üçüncü fəslin **"Dövlət idarəetmə sisteminin inkişafının konseptual əsaslarının yaradılması"** adlı birinci paraqrafında müasir Azərbaycan Respublikasının dövlət idarəetmə sisteminin inkişafının konseptual əsaslarının yaradılmasının əsas istiqamətləri müəyyənləşdirilmişdir. Cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində baş verən demokratik - hüquqi dəyişikliklər, dövlətin müasir dünyada rolu və funksiyalarının genişlənməsi qiymətləndirilərək, mülki cəmiyyət institutlarının genişlənməsi qiymətləndirilməsində iştirakının təmin edilməsi, ifrat bürokratik tabeçilik meyillərinin aradan qaldırılması, idarəetmə xidmətlərinin göstərilməsində dövlətin sosial və siyasi məsuliyyətinin gücləndirilməsi tələblərini nəzərə alaraq, mövcud dövlət idarəetmə sisteminin inkişafı təmin edən yeni dövlət idarəetmə konsepsiyasının yaradılması zəruriliyi müəyyənləşdirilmişdir. Bu konsepsiyanın çərçivəsində dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri şərh olunaraq mövcud problemlərin həlli sahəsində dövlət orqanlarının və ictimai institutların həlli sahəsində dövlət orqanlarının və ictimai institutların qarşılıqlı fəaliyyətinin əsas hüquqi formaları müəyyənləşdirilmişdir.

İnsan resurslarının istifadənin səmərəliliyinin yüksəldilməsi probleminin həll edilməsi dövlətin müasir mərhələdə sosial siyasətin prioritet istiqaməti kimi nəzərdən keçirilərək, aqrar sektor da kooperativlərin maddi - texniki bazasının möhkəmləndirilməsi, gizli sahibkarlıq obyektlərinin leqallaşdırılması, investisiyaların emaledici sənaye müəssisələrinin yenidən qurulmasına və genişləndirilməsinə yönəldilməsi yolu ilə işsizliyin aradan qaldırılması istiqamətində hüquqi - iqtisadi və təşkilati xarakterli tədbirlərin həyata keçirilməsi barədə müddəalar əsaslandırılmışdır.

Kadr potensialının artırılması və idarəetmə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması dövlət idarəetmə orqanlarının fəaliyyətinin səmərəliliyin əsas şərti kimi müəyyənləşdirilərək, idarəetmə sisteminin inkişafı konsepsiyasında dövlət idarəetməsinə kadrların cəlb edilməsi və idarəetmə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi meyarını əks etdirən normativ - hüquqi sənədin hazırlanması və tətbiq edilməsi barədə təklif irəli sürülmüşdür.

Dövlət orqanlarının idarəetmə fəaliyyətinin monitorinqinin aparılması prosesinin nəticələrinin təhlili hüquqi aktla rəsmiləşdirilərək, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinə xas olan qüsurları aşkar etməyə, həm də idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirməyə imkan verəcək.

Üçüncü fəslin **"Azərbaycan Respublikasının dövlət idarəetmə orqanlarının daxili quruluşunun təkmilləşdirilməsi problemləri"** adlanan ikinci paraqrafında göstərilir ki, dövlətin fəaliyyətinin təşkili öz ifadəsini dövlət idarəetməsinin daxili quruluşunun təkmilləşdirilməsi prosesində tapır.

Azərbaycan Respublikasının Milli Məclisinin Konstitusiya ilə təsbit edilmiş səlahiyyətlərinin məzmunu dissertasiyada qiymətləndirilərək, əsas Qanununun 94-cü ("Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar") və 95-ci ("Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlər") maddələri arasında ümumi cəhətlərin və fərqlərin mövcudluğun qanunverici orqanın səviyyəsində aydınlaşdırılması, Milli Məclis tərəfindən barəsində ümumi qaydaların müəyyən edildiyi məsələlərin siyahısı ilə həll edilən məsələlərin siyahısı arasında uyğunsuzluğun təhlili, Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması məsələsinin

Azərbaycan Respublikası Milli Məclislinin həll etdiyi məsələlərin siyahısına daxil edilməsi, Azərbaycan Respublikası Milli Məclisinin komitələrinin və komissiyalarının qanunvericilik təşəbbüsü hüquqlarının və parlament nəzarəti sahəsində səlahiyyətlərinin Konstitusiya ilə təsbit edilməsi və bir sıra bu cür dəyişikliklərin edilməsi ilə şərtləndirilir.

Azərbaycan Respublikasının müstəqilliyinin və iqtisadi təhlükəsizliyinin dövlətin daxili quruluşunun sabitliyindən asılılığını nəzərə alaraq, Azərbaycan Respublikasının xarici dövlətlərin regional birliklərinə və eləcədə təcavüzkar hərbi ittifaqlara qoşulması, Azərbaycanın təbii-sərvətlərinin qeyri-rezidentlərin istifadəsinin verilməsi kimi məsələlərin yalnız referendumla həll edilməsi barədə təklif əsaslandırılır.

Azərbaycan Respublikası Konstitusiyasının yerli özünüidarənin təşkilinə dair müddəalarının realizə edilməsi vəziyyətini qiymətləndirərək, bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı münasibətlərinin tənzimlənməsi sahəsində son 17 il durğunuq dövrü adlandırılmış, bələdiyyələrin səlahiyyətləri və mülkiyyəti ilə bağlı olan problemlərinin açıq qaldığı qeyd olunmuş və yaranmış vəziyyətdən çıxmaq üçün "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi zəruriliyi əsaslandırılmışdır.

Beləliklə, dövlət idarəetmə sisteminin inkişafı konsepsiyasının dissertasiyası III fəslində əsaslandırılmış modelinin qəbul edilməsi və onun idarəetmə fəaliyyətində tətbiq edilməsi dövlət - cəmiyyət münasibətlərinin tənzimlənməsində pərakəndəliyi aradan qaldırmağa, dövlət orqanlarının fəaliyyətinin hüquqi bazasını təkmilləşdirməyə, ölkənin sosial - iqtisadi inkişafını sürətləndirməyə şərait yaradacaq.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Qanun elmi hüquq jurnalının 2016-cı il 12-ci cildi -Dövlət idarəetmə sisteminin qurulmasının konstitusion-hüquqi aspektləri.
2. Milli Aviasiya Akademiyasının elmi məcmuələr jurnalının 2017-ci il 19(2) cildi - Dövlət aparıtının fəaliyyətinin monitorinq üsulu ilə qiymətləndirilməsinin konstitusion-hüquqi aspektləri.
3. Qanun elmi hüquq jurnalının 2017-ci il 1-ci cildi Dövlət idarəetmə sisteminin təşkilinin səmərəliliyinin konstitusion-hüquqi qiymətləndirilməsi problemləri.
4. Politicus науковый журнал 2017 г. 3-й выпуск - Оснавные направления совершенствования системы государственного управления в Азербайджанской Республике.
5. Polis Akademiyasının elmi xəbərləri N1 (1) fevral 2018-ci il - Dövlət idarəetməsinin bəzi xüsusiyyətləri və funksiyaları
6. Milli Aviasiya Akademiyasının elmi məcmuələr jurnalının 2018-ci il 19 (2) cildi - Dövlət orqanlarının fəaliyyətinin monitorinq üsulu ilə qiymətləndirilməsinin konstitusion-hüquqi aspektləri
7. Aviakosmik məsələlərin həllində Gənclərin yaradıcı potensialı III Beynəlxalq Elmi-Praktiki konfrans –Dövlət idarəetmə sisteminin inkişafının konseptual əsasları
8. I Международная научно-практическая конференция «MODERN SCIENCE: INNOVATIONS AND PROSPECTS» Стокгольм, Швеция - Формирование электронного правительства-государства в Азербайджанской Республике как основное направление совершенствования системы государственного управления (https://sci-conf.com.ua/wp-content/uploads/2021/10/MODERN-SCIENCE-INNOVATIONS-AND-PROSPECTS-10-12.10.21.pdf)
9. III Международная научно-практическая конференция «SCIENCE, INNOVATIONS AND EDUCATION: PROBLEMS AND PROSPECTS» Токио, Япония - CONSTITUTIONAL AND LEGAL FUNDAMENTALS OF PUBLIC ADMINISTRATION IN THE REPUBLIC OF AZERBAIJAN (https://sci-conf.com.ua/wp-content/uploads/2021/10/SCIENCE-

INNOVATIONS-AND-EDUCATION-PROBLEMS-AND-PROSPECTS-13-15.10.21.pdf)
10. Polis Akademiyasının elmi xəbərləri, Bakı şəhəri 2021, N4 - Azərbaycan Respublikasında elektron hökümətin formalaşdırılması dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinin əsas istiqaməti kimi https://www.pa.edu.az/upload/_PA_jurnal%C4%B1_4.pdf
11. Polis Akademiyasının elmi xəbərləri, Bakı şəhəri 2021, N4 - Azərbaycan Respublikasında elektron hökümətin inkişaf istiqamətləri. İnkişafın beynəlxalq və yerli dəyərləndirmə meyarları https://www.pa.edu.az/upload/_PA%20jurnal%C4%B1-%201-%202022.pdf

Dissertasiyanın müdafiəsi 27 mart 2023-cü il tarixdə, saat 11:00-da Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 saylı Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1045, Bakı şəhəri, Mərdəkan pr., 30, Milli Aviasiya Akademiyası.

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları https://naa.edu.az/az/admission/doctorate/ rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 fevral 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.02.2023

Kağızın formatı: $60x84^{1/16}$

Həcm: 40917 işarə

Tiraj: 100